**QİYAS ŞÜKÜROV**
*Girne Amerikan Universitetinin (Kipr) dosenti*

# XIII-XV ƏSRLƏRDƏ ƏNDƏLÜSDƏ TİCARƏT*

Pireney yarımadasının cənubi-şərqində yerləşən Qrenada, Loxa, Qadis, Almeriya, Malaqa və Cəbəlitarıq kimi şəhər və bölgələr XIII-XV əsrlər arasında Bəni Əhmər dövlətinin hakimiyyəti altında idi. Bəni Əhmər dövləti yarımadanın şimal və şimali-qərb istiqamətlərində Kastiliya, Araqon və Portuqaliya krallıqları ilə həmhüdud idi. Dövlətin cənub sərhədləri Aralıq dənizi ilə əhatələnmiş olub, dənizin qarşı sahilindəki Mərinilər, Hafsilər və Əbdülvadilər adlı Quzey Afrika dövlətləri ilə həmhüdud idi. Venetsiyalı, Genuyalı, Florensiyalı və Kataloniyalı tacirlər üçün də bu coğrafiya cazibədar bir ölkə idi. Qeyd etmək lazımdır ki, bəhs olunan qonşu ölkələrdən gələn tacirlər Bəni Əhmər hakimiyyəti altında olan bölgələrdə sərbəst ticarət imkanı əldə etdikləri üçün geniş miqyaslı ticari fəaliyyətlərlə məşğul olurdular. Bu ticari münasibətlər qitələr və ölkələr arasında mal və pul tədavülünü təmin etməklə bərabər müxtəlif xalqlara mənsub bir sıra adət-ənənələr ilə mədəniyyət ünsürlərinin fərqli və uzaq yerlərə nəqlinə imkan verirdi. Şərq-qərb əlaqələrində körpü rolunu oynayan Əndəlüs coğrafyasında isə bu motivlərin əhəmiyyəti bir qat daha artırdı. Məhz bu səbəblə Əndəlüs tarixinin 1232-1492 illəri arasını əhatə edən Bəni Əhmər dövrünə təsadüf edən tarixi prosesdə Pireney yarımadasının cənub-şərq bölgələrində canlı ticari fəaliyyətlərin mövcud olduğu müşahidə edilir. Ölkənin coğrafi mövqeyi Qrenada, Malaqa və Cəbəlitarıq kimi şəhərləri mühüm ticarət mərkəzlərinə çevrilməsinə imkan vermişdi. Qeyd olunan şəhərlərə həm yerli, həm də əcnəbi tacirlər axın edirdi. Bu amil səbəbi ilə bəhs olunan dövrün Əndəlüs bazarlarında şərq və qərb ölkələrindən idxal edilən ticari mallara təsadüf edilirdi. Təbii ki, bazara çıxarılan ticari əmtəə burada alıcı və satıcıların maraq dairəsi ilə iqtisadi gücləri müqabilində alınıb satılırdı.

Yuxarıda qeyd olunan ticari fəaliyyətlər sadəcə sülh və əmin-amanlıq dövrünə məxsus olmayıb, Rekonkista hərəkatının inkişafı prosesində cərəyan edən müharibələr və işğallar əsnasında da davam edirdi. Çünki bu prosesdə Kastiliya və Araqon krallıqlarının işğalına məruz qalan əski Əndəlüs şəhər və kəndlərinin əhalisi əksəriyyət etibarilə həmin bölgələrə, yəni işğal edilməmiş Bəni Əhmər şəhər və kəndlərinə köç edirdilər. Köç edənlərin keyfiyyətli və vəsfli insanlar olduğunu qeyd etmək lazımdır. Onlar arasında alim və sənətkarlar olduğu qədər ticarət ərbabı da vardı. Ticarət ərbabı özü ilə bərabər mənqul əmlakını, başqa bir ifadə ilə sərmayəsini də gətirirdi. Bu səbəblə dövrün bir sıra siyasi və hərbi prosesləri Əndəlüslü tacirlərin əllərindəki böyük miqdarda sərmayənin Bəni Əhmər şəhərlərinə yönəlməsini və iqtisadi həyatın canlanmasını təmin etmişdi (5, s.85). Bu sərmayə, şübhəsiz ki, yeni iş yerlərinin açılmasına səbəb olurdu. Dövlət ilə fərd də bu fəaliyyətlərin nəticəsi olaraq böyük miqdarda qazanc əldə edirdi.

Bəni Əhmər şəhərlərindəki ticari fəaliyyətlər daxili və xarici ticarət olmaq üzrə iki qrupa ayrılmışdı. Ölkə daxilindəki şəhər və bölgələr arasında cərəyan edən ticari münasibətlər daxili ticarətin təməlini təşkil edirdi. Şəhərlərin müxtəlif məhəllələrində fəaliyyət göstərən bazarları da bura daxil etmək lazımdır. Məsələn, Qrenadanın müxtəlif səmtlərində belə bazarlar var idi. Şəhərin qərb tərəfində, yəni Qrenada məscidinin yaxınlığında yerləşən əl-Qeysəriyyə bunlardan biri idi. Üstüörtülü bazar şəklində inşa edi-

---

* Bu məqalə Memar Sinan İncəsənət Universiteti Sosial Elmlər İnstitutu Tarix kafedrasında hazırladığım "Bəni Əhmər Dövləti (1232-1492)" adlı dissertasiyanın elmi materialları əsasında yazılmışdır.

lən əl-Qeysəriyyənin dükanları sıra ilə düzülmüş olub, yolları dar idi. Bazarın bir neçə qapısı vardı. Qapılar əksəriyyət etibarı ilə sabahlar açılır, axşamlar bazarın təhlükəsizliyini təmin etmək məqsədi ilə qapanırdı (10, s.306-307). Əl-Qeysəriyyədə dükanı olan tacirlər sabahlar dükanlarını açaraq, satlıq əşyalarını dükanın önündə sərgiləyirdilər. Şəhərin digər bazar və alış-veriş mərkəzlərindəki iş rejimi də fərqli olmayıb, bənzər minval üzrə davam edirdi.

Bazarlar ilə alış-veriş yerlərində meyvə-tərəvəz növləri, qızıl və gümüş əşyalar, yaqut, zümrüd və mücəvhər kimi qiymətli daşlar, kətan, pambıq və ipəkdən toxunan geyim əşyaları ilə mərmər əşyalar satılırdı. Ümumi bazar və dükanlara əlavə olaraq, şəhərlərin bəzi məhəllələrində həftəlik bazarlar qurulurdu. Bu bazarlar əsas etibarı ilə şəhərlərin arxa, dar və məscidə bitişik küçələrində açılırdı. Qrenada şəhərinin giriş qapılarından biri olan İlbirə qapısının qarşısındakı dar küçələrdə qurulan həftəlik bazar bu tip bazarların konkret nümunələrindən birini təşkil edir (10, s.308; 11, s.208). Həftəlik bazarlarda əksəriyyət etibarı ilə qida məhsulları və gündəlik tələbat malları satılırdı.

Bazarlarda istifadə edilən çəki və ölçü alətləri məhsulun növünə görə dəyişirdi. Keşniş və baharat növlərinin çəkilməsində misqal istifadə edilirdi (10, s.310; 11, s.147). Qızıl və gümüş kimi qiymətli əşyalarda ölçü vasitəsi olaraq dirhəm istifadə edilirdi (12, c.1, s.137-138; 10, s.310; 11, s.147). Buğda məhsulları xaricindəki qida məhsulları dəllal (10, s.310) və rətl (12, c.2, s.51; 11, s.147) ilə çəkilirdi. Buğda məhsullarının çəkilməsində isə qədh, mud və qantar adlı ölçü vasitələrindən istifadə edilirdi (12, c.1, s.133; 10, s.310-311; 11, s.147-148). Parça növləri isə şibr (qarış), qəbzə və zira ilə ölçülürdü (10, s.311; 11, s.148).

Ölkədəki ticarət münasibətlərinin böyük bir qismini xarici ölkələrlə aparılan ticarət fəaliyyətləri təşkil edirdi. Xarici ölkələrlə qurulan ticarət əlaqələrində Almeriya, Malaqa, Almunekar, Tarif, Algesiras və Cəbəlitarıq kimi Bəni Əhmər şəhərlərinin xüsusi yeri vardı. Bu şəhərlərdəki tacirlərin ən böyük ticarət ortaqları Kastiliya, Araqon, Portuqaliya, Genuya, Venetsiya və Florensiyadan gələn tacirlər idi. Dəməşq və İskəndəriyyə kimi şərq şəhərlərinin tacirləri də Əndəlüslü tacirlərin ticari ortaqları arasında idilər. Ancaq xarici ölkələrlə qurulan ticari münasibətlərin özünəməxsus çətinlikləri var idi. Sərbəst ticarət məsələsi bu çətinliklərin başında gələn mühüm bir problem idi. Bu problemi dəf etmək məqsədi ilə xarici dövlətlərlə imzalanan müqavilələrə ticarətlə əlaqədar xüsusi maddələr qoyulurdu. Məsələn, araqonlu tacirlər ilə Əndəlüslü tacirlərin ticari mənfəətlərini nizamlamaq məqsədi ilə hər iki dövlət arasında imzalanan siyasi müqavilələrdə ticarətlə əlaqəli bir maddə olurdu. Bu mövzuya təmas edən müqavilələrdən biri 1302-ci ildə imzalanmışdı. Hər iki dövlət arasındakı ümumi siyasi vəziyyəti tənzimləyən müqavilənin xüsusi bir maddəsi ticarət fəaliyyətləri ilə əlaqədar idi. Bu maddə ilə müqaviləni imzalayan dövlətlətlər öz kömrük qapılarını qarşılıqlı olaraq müttəfiq dövlətin tacirlərinə açır və onların ticari fəaliyyətlərini təşviq edirdilər. Bu dövlətlərdən birinin tacirlərinin canları ilə ticari mallarının müttəfiq ölkənin sərhədləri daxilində təhlükəsiz əllərdə olacağı qaranti edilirdi (13, s.110; 10, s.316). Bəni Əhmər dövləti ilə Araqon krallığı arasında 1321-ci ilə imzalan müqavilədə də ticari münasibətlərlə əlaqədar xüsusi maddələr var idi. Müqaviləni imzalayan dövlətlərin hər biri öz dəniz sahillərini müttəfiq dövlətə açır və müttəfiq ölkənin gəmilərinə sərbəst fəaliyyət haqqı tanıyırdı. Əlbəttə ki, müttəfiq ölkənin tacirlərinə bu gəmilərdə sərbəst şəkildə səyahət etmə haqqı verilirdi. Hər iki ölkə müttəfiq dövlətin tacirlərinə də sərhədlərini açıq tutur və onlara sərbəst ticarət hüququ verirdi (13, s.120; 15, s.127). 1405-ci ildə Bəni Əhmər dövlətinin Araqon və Sikilliyə krallıqları ilə imzaladığı müqavilədə də bənzər maddələrin mövcud olduğu müşahidə edilir. Müqavilədə yer alan xüsusi bir maddə ilə hər üç dövlətin limanlarındakı ticari fəaliyyətlər nizama salınırdı. Bu müqavilə ilə düşmən bir mövqedə

ələ keçirilən qala və yaxud da gəmidə təsadüf edilən müttəfiq dövlətin tacirinin canı və malı toxunulmaz olaraq qəbul edilirdi (13, s.82,152-153; 10, s.318; 15, s.155-156).

Bəni Əhmər dövləti ilə mütəmadi olaraq müharibə edən Kastiliya krallığının ticari münasibətlərə xüsusi əhəmmiyyət verdiyi müşahidə edilir. Hətta ticari münasibətləri tənzimləmək məqsədi ilə həm quzey Afrika dövlətləri, həm də Bəni Əhmər dövləti ilə imzaladığı müqavilələrə ticarətlə əlaqədar bəzi xüsusi maddələr qoydurduğunu qeyd etmək lazımdır. Belə bir maddə, Kastiliya kralı IV Sanço (1284-1295) ilə Mərini sultanı Əbu Yusif Yakub arasında 1285-ci ildə imzalanan müqaviləyə daxil edilmişdi. Bu maddə ilə Kastilya hüdudları daxilində ticarətlə məşğul olan müsəlman tacirlərin haqq, hüquq və statusları müəyyənləşdirilmiş, kömrüklərdəki işləri asanlaşdırılmışdır (13, s.106). 1334-cü ildə Kastiliya kralı XI Alfonso (1312-1350) ilə Bəni Əhmər sultanu I Yusuf (1333-1354) arasında imzalanan müqavilənin bir maddəsi də bu mövzuya həsr edilmişdi. Bu maddə ilə hər iki dövlətin tacirləri vergilərini ödəmək müqabilində qarşı tərəfin sərhədləri daxilində sərbəst ticarət haqqı əldə etdilər (10, s.318). 1492-ci ildə Qrenadanın İspan krallıqları qarşısında təslimini tənzimləyən müqavilədə də ticarətlə əlaqədar bir maddə vardı. Qrenadanın təslim olmasını təqib edən dövrdə Pireney yarımadasındakı müsəlman tacirlərin haqq və hüquqlarını nizamlayan bu maddə ilə müsəlman tacirlər kömrük vergilərini ödəmə müqabilində Pireney yarımadasının hər tərəfində ticari fəlaliyyətlərini davam etdirmə hüquqlarını qoruyacaqdılar (9, s.25; 6, s.398; 8, s.145; 16, s.56; 22, s.218; 23, s.395; 3, s.344).

Kastiliya-Bəni Əhmər münasibətlərində ticarət xüsusi maraq və əhəmiyyət kəsb etdiyi üçün hər iki ölkənin sərhədlərinin yaxınlığında bəzi ticarət mərkəzləri qurulmuşdu. Qeyd olunan mərkəzlər arasında Ubdə şəhərinin xüsusi yeri vardır. XIV əsrin ikinci yarısında bu şəhər ticarət malları ilə dolub daşırdı. Qeyd etmək lazımdır ki, 1368-ci ildə başlayan şiddətli Qrenada-Kastiliya müharibələri bu şəhərin öz ticarət əhəmmiyyətinin itirməsinə səbəb olmamışdı. Bu dövrün dövlət xadimi və alimlərindən Lisan əd-Din İbn əl-Xətib dostu İbn Xəlduna bəhs olunan müharibələrlə əlaqədar yazdığı məktubunda Ubdə şəhərinin coğrafi və ticari mövqeyinə işarə etmiş və bu şəhəri "ticarət yurdu" adlandırmışdır (2, s.101). Ölkənin başqa bölgələrində də, şübhəsiz, bir sıra ticarət antrepoları və koloniyalar vardı. Belə bir koloniya 1326-cı ildə Almeriyada Kataloniyalı tacirlər tərəfindən qurulmuşdu. 1327-ci ildə Malaqada da belə bir koloniya qurulmuşdu (10, s.318).

Bəzi hallarda koloniyaların statuslarını müəyyənləşdirən bir sıra müqavilələrin imzalandığını da qeyd etmək lazımdır. Belə bir müqavilə, Araqon kralı IV Peter (1336-1387) ilə Bəni Əhmər sultanı V Məhəmməd (1362-1391) arasında 1366-cı ildə imzalanmışdı. Bu müqavilə ilə Bəni Əhmər hüdudları daxilindəki kataloniyalı tacirlər ilə koloniyaların hüquqi statusları tənzimləndi. Yeni nizamnaməyə görə kataloniyalı tacirlər Bəni Əhmər hüdudları daxilində sərbəst şəkildə ticari fəaliyyətlərini icra edə biləcəkdilər (10, s.81; 4, s.98-99). Qeyd etmək lazımdır ki, məhz bu təşviq səbəbi ilə sonrakı illərdə kataloniyalı tacirlərin Əndəlüsdəki ticari fəaliyyətlərində canlanma meydana gəldi.

Bəni Əhmər sərhədləri daxilində ticarətlə məşğul olan venetsiyalı tacirlərin koloniya qurma işinə xüsusi əhəmiyyət verdikləri müşahidə olunur. Bəni Əhmər idarəçiləri isə onlara şəxsi təhlükəsizliyi və ticarət mallarının mühafizə ediləcəyi ilə bağlı zəmanət verdilər. Buna əlavə olaraq, Bəni Əhmər torpaqlarında kilsə və hamamlar inşa etmələrinə icazə verildi (4, s.98-99). Genuyalı tacirlərə də bənzər haqların verildiyini qeyd etmək lazımdır. Bu məsələni tənzimləmək üçün 1279-cu ildə Qrenadanı ziyarət edən Genuya elçisi, Əbu Abdullah Məhəmməd əl-Fəqih (1272-1302) ilə görüşdü. Görüş əsnasında genuyalı tacirlərin arzu və istəklərini sultana ərz edən elçi, nəticə etibarı ilə onlar lehinə bir ticarət müqaviləsi imzalamağa müvəffəq oldu. Bu müqavilə sayəsində genuyalı ta-

cirlər Bəni Əhmər sultanının himayəsini qazandılar və bir sıra ticari vergiləri ödəməmə haqqını əldə etdilər. Əlavə olaraq, müqavilənin imzalandığı tarixə qədər xarici ölkələrə ixrac edilməsi qadağan olan bir sıra məhsulllərın ixracına da icazə verildi. Bu müqavilə ilə birlikdə genuyalı tacirlər, Bəni Əhmər torpaqlarına kilsə, hamam və karvansaray inşa etmək haqqı da əldə etdilər. Bütün bu hüquqlar müqabilində, əcnəbi ölkələrin nəzarəti altında olan dənizlərdə Qrenada gəmiləri düşmən hücumlarına məruz qaldıqları zaman ən yaxında olan Genuya gəmiləri yardıma gələcək və Qrenada gəmilərini qurtaracaqdılar. Əlbəttə ki, Genuya ticarət gəmiləri də Qrenadanın kontrolundakı dəniz şəridində bənzər haqları əldə etmişdilər (10, s. 315; 11, s.150; 18, s.360-361). Bu haqlarını həyata keçirən genuyalılar isə romalılar dövründən bəri liman və ticarət mərkəzi olaraq bilinən Malaqa (1, s.486), Qrenada və Almeriya kimi Əndəlüs şəhərlərində ticarət koloniyaları qurdular (10, s.315; 19, s.158; 21, s.277). XV əsrin ikinci yarısına qədərki tarixi mərhələdə bu sahədə o qədər irəliləyiş əldə etdilər ki, 1452-ci ildə Qrenadada "Compera Granate" adlı bir ticari təmsilçilik açdılar (10, s.315). Genuyalıların Bəni Əhmər hüdudları daxilində belə bir gücə sahib olmaları heç də təsadüf əsəri deyildi. Genuyalıların Pireney yarımadasına yönəlmələri ticari rəqabət ilə bərabər ticarət yolları üzərindəki kontrolun əl dəyişdirməsinin nəticəsi idi. Buna paralel olaraq, şərq ölkələri ilə təsis edilmiş olan münasibətlərdə meydana gələn mənfi hallar genuyalı tacirləri yeni ticari qaynaq axtarışlarına sövq etmişdi (7, s.249). Bu krizisdən çıxış yolu axtarışında olan genuyalılarla bərabər Venetsiyalı tacirlər Aralıq dənizinin qərb sahillərinə yönəlib, xammal və ticari əmtəə axtarışlarını bu istiqamətdə davam etdirməyə başladılar. Bəni Əhmər dövlətinin hakimiyyəti altında olan ticarət mərkəzləri bu istiqamətdə onların diqqətini cəlb edən ilk bölgələr arasında oldu. Ölkənin coğrafi mövqeyi ilə təbii zənginlikləri, şübhəsiz, bu yeni trendi təşviq edən mühüm amillər arasında idi.

Xarici ölkələrin tacirləri ilə qurulan ticari əlaqələrdən sadəcə ölkənin ticarətlə məşğul olan qismi qazanmırdı. Bu münasibətlərdə tətbiq edilən kömrük vergilərindən Bəni Əhmər dövlətinin xəzinəsi də böyük miqdarda gəlir əldə edirdi. Məsələn, qeyd olunan dövrdə Əndəlüsdən ixrac edilən mallara 8 % miqdarında vergi qoyulmuşdu (18, s.361; 17, s.68). Qrenadadan ixrac edilən mallardan alınan vergilərdə isə sadəcə genuyalıların payı 6 % miqdarında idi (17, s.68). Venetsiya ilə Genuya kimi İtaliya şəhər dövlətlərinin burada gerçəkləşdirdikləri ticari fəaliyyətlər nəticəsində Qrenada şəhəri bu dövrdə Əndəlüsün ən zəngin şəhəri mövqeyinə yüksəlmişdi (5, s.79-80). Əlbəttə ki, Əndəlüsdə ticari fəaliyyətlər icra edən İtaliya şəhər dövlətləri arasında Florensyanın da özünəməxsus yeri vardı (10, s.299; 18, s.362).

Orta əsrlərin bu son mərhələsində Pireney yarımadasının cənub-şərq bölgələrindən İtaliya şəhər dövlətləri ilə Quzey Avropa ölkələrinə əsas etibarı ilə ipək və ipək məhsulları nəql edilirdi. Nəql edilən mallar arasında qurudulmuş meyvə növləri (21, s.277), ələxüsus da badam, əncir və üzüm də vardı (10, s.316; 11, s.150-151). Bu məhsulların ixracatında Malaqa şəhəri xüsusi yer tuturdu. Qeyd etmək lazımdır ki, Malaqa və ətrafından toplanıb qurudulan meyvə növləri Misir, İraq, Suriya və Hindistan kimi şərq ölkələrinə də göndərilirdi (1, s.486). Malaqadan ixrac edilən məhsullar arasında çini əşya, vaza və gil məmulatları da var idi. Bu tip ticari mallar isə əksəriyyət etibarı ilə İtaliya şəhər dövlətləri ilə şərq ölkələrinə ixrac edilirdi (20, s.94-95).

Bəni Əhmər kontrolundakı Əndəlüs şəhərlərinin ticari mövqeyi sadəcə ixracatla məhdudlaşmırdı. Əndəlüs şəhərlərində ticari fəaliyyətlə məşğul olan əcnəbi və yerli tacirlər, şübhəsiz ki, ölkəyə bəzi məhsulları idxal da edirdilər. Məsələn, qafur, misk, ənbər və zəfəran kimi məhsullar Hindistandan idxal edilirdi (14, s.129,167). Valensiyadan (Araqon krallığı) düyü, Kastiliyadan zeytun yağı, Məğribdən buğda, İtaliyadan qurğu-

şun və pambıq, Afrika ölkələrindən isə yağ, fildişi (11, s.147) və dəri məhsulları (11, s.151; 15, s.78) idxal edilirdi.

Əndəlüsdəki ticari fəaliyyətlər mövzusunda nəticə etibarı ilə qeyd etmək lazımdır ki, XV əsrin son qərinəsində Pireney yarımadasındakı Portuqalya və Kastiliya krallıqlarının Atlantik okeanında fəallaşmaları və yeni ticarət yolları və bölgələri kəşf etmələri, Cəbəlitarıq boğazına hökm etmələri Əndəlüsdəki ticarət antrepolarının fəaliyyətlərinə ağır zərbə vurdu. Qeyd olunan dövrdə Araqon krallığının Aralıq dənizindəki fəaliyyətləri və strateji nöqteyi-nəzərindən əhəmmiyyət kəsb edən mövqeləri ələ keçirməsi İtaliya şəhər dövlətləri ilə Bəni Əhmər hakimiyyəti altındakı Əndəlüs şəhərlərinin ticari münasibətlərinə mənfi təsir göstərdi. Çünki ölkənin hüdudları xaricində meydana gələn siyasi proseslər beynəlxalq ticarət yollarında da dəyişikliklərə səbəb olmuşdu. Bu minvalda cərəyan edən proseslər, şübhəsiz ki, Bəni Əhmər dövlətinin iqtisadi həyatına mənfi təsir göstərib, ölkənin sərhədləri daxilindəki şəhər və bölgələr ilə dövlət xəzinəsini böyük miqdarda gəlirdən etdi (7, s.250) və dövlətin iqtisadi çöküşünü sürətləndirdi.

### *ƏDƏBİYYAT*

a)Türk dilində
1.Calero-Secall Isabel, "Mâleka", DİA, Ankara: Türkiye Diyanet Vakfı Yayınları, 2003.
2.İbn Haldun, Bilim ile Siyaset Arasında Hatıralar, Çev. Vecdi Akyüz, İstanbul, Dergâh Yayınları, 2004.
3.İmamuddin S.M., Endülüs Siyasi Tarihi, Çev. Yısuf Yazar, Ankara, Rehber Yayınları, 1990.
4.Özdemir Mehmet, Endülüs Müslümanları II (Medeniyet Tarihi), Ankara, Türkiye Diyanet Vakfı Yayınları, 1997.
5.Parlak Nizamettin, "Kültürler Arası Etkileşimde İspanya'daki Son Müslüman Devlet Beno Ahmer'in Konumu", **İslaâmiyât**, c. VII/3 (2004), səh. 75-88.
b)ərəb dilində
6.Beyzun İbrahim, əd-Devlətü'l-arabiyyə fi İsbaniyə minə'l-fəth hatta suqüti'l-xilafə, Beyrut, Darü'n-nahdati'l-arabiyyə, 1986.
7.Bəvviz Faris, Tarixü'l-Arab fi'l-Əndəlüs, Dımaşq, Camiatü Dımaşq, 1994-1995.
8.Büstani Butrus b. Bulus, Məarikü'l-Arab fi'l-Əndəlüs, Beyrut, Darü Marun Abbud, 1987.
9.Cəmalüddin Abdullah Muhamməd, əl-Muslimunə'l-munassarun əvi'l-Muriskiyyunə'l-Əndəlüsiyyun: Safha mühimmə min tarixi'l-müslimin fi'l-Əndəlüs, əl-Qahirə, Darü's-sahvə, 1991.
10.əd-Dəvsəri Əhməd Sani, əl-Həyatü'l-ictimaiyyə fi Ğırnata fi 'asri devləti Bəni'l-Əhmər, Əbu Zabi, əl-Məcməü's-səqafi, 2004.
11.Fərhat Yusuf Şükri, Gırnata fi zilli Bəni'l-Əhmər: Dirasə Hadariyyə, (y.y.): əl-Müəssəsətü'l-cami'ə li'd-dirasat və'n-nəşr və't-təvzi, 1982.
12.İbnü'l-Xətib Əbu Abdullah Lisan əd-Din Muhamməd b. Abdullah, əl-İhata fi əxbari Ğırnata, təhqiq: Muhamməd Abdullah İnan, c. 1-4, əl-Qahirə, Məktəbətü'l-Hanci, 1973-1977.
13.İnan Muhamməd, Devlətü'l-islam fi'l-Əndəlüs: əl-Asrü'r-rabi nihayətü'l-Əndəlüs və tarixü'l-Arabi'l-mütənassirin, əl-Qahirə, Mətbəətü'l-mədəni, 1997.
14.əl-Maqqari Əhməd b. Muhamməd ət-Tələmsani, Nəfhü't-tıb min ğusni'l-Əndəlüsi'r-ratib və zikri vəziriha Lisan əd-din b. əl-Xətıb, təhqiq: Yusuf əş-Şeyx Muhamməd əl-Bəqai, c. 1, Beyrut, Darü'l-fikr, 1998.
15.Məhasnə Əhməd Tevfiq Muhamməd, "əl-Həyatü's-siyasiyyə fi devləti Bəni'l-Əhmər", Külliyyətü'd-dirasati'l-'ulya, əl-Camiətü'l-Urduniyyə, İordaniya, 1997.
16.Razuq Muhamməd, əl-Əndəlüsiyyun və həcəratuhum ilə'l-Məğrib: xilalə'l-qarneyn 16-17, Darü'l-Beyza, İfriqiya'ş-şarq, 1991.
c)Avropa dillərində
17.Arié Rachel (1987-1988), "Aperçus sur le Royaume Nasride de Grenade au XIVe Siècle", Quaderni di Studi Arabi, c. 5-6 (1987-1988), səh. 58-69.

18.Arié Rachel, L'Espagne Musulmane Au Temps Des Nasrides (1232-1492), Paris, De Boccard, 1990.
19.Fletcher Richard, Moorish Spain, Berkeley-Los Angeles, University of California Press, 1993.
20.Kenesson Summer S., "Nasrid Luster Pottery: The Alhambra Vases", Muqarnas: An Annual on Islamic Art and Architecture, Ed. Oleg Grabar, Leiden, E.J. Brill, 1992, c. 9, səh. 93-115.
21.Kennedy Hugh, Muslim Spain and Portugal: A Political History of al-Andalus, London, Longman, 1996.
22.Read Jan, The Moors in Spain and Portugal, London, Faber and Faber, 1974.
23.Sahibzade Masud-ul-Hassan Khan Sabri, History of Muslim Spain, Lahor, Publishers Emporium, [t.y.].

**ГИЯС ШЮКУРОВ**
***Доцент Гирнейского Американского Униреситетa (Кипр)***

## ТОРГОВЛЯ В XIII-XV ВЕКАХ В АНДАЛУЗЕ

В статье автором обобщается торговая деятельность купцов в городах Андалуза при правление Бани Ахмера. Автор анализирует интересы и прибыл купцов прибывщие из различных концов мира, в том числе из Кастилии, Арагона, Португалии, Венеции и Генуе для торговля в различные города Андалуза. Государства Андалуза при правлении Бани Ахмера имел большие экономические выгоды из торговля с иностранными государствами.

**QİYAS SHUKUROV**
***Assistant Professor of Girne American University***

## TRADE IN ANDALUSIA BETWEEN THE XIII-XV CENTURIES

The main subject of study is to find out trading process and mercantile affairs of Andalusian cities and regions in the period of Nasrīd Kingdom. The additional researching topics are about the relations between the Andalusian traders and foreign traders who came from Castile, Portugal, Aragon, Venice and Genoa. Furthermore, it is studied the trading interests of foreign traders and their colonies which established in Andalusian cities and regions. The outward trade, export agreements and sales are the farther important studied subjects.

***Rəyçilər: t.e.d. E.B.Muradəliyeva, t.e.d.İ.M.Məmmədov.***
***BDU-nun Tarix fakültəsi «Azərbaycan tarixi» (humanitar fakültələr üzrə) kafedrasının 06 yanvar 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №06).***